## *Bir şəhiddir ürəyim*

Unudula bilərmi o gecki səhnələr?
Bağlanmışdı Bakının qolları əsir kimi.
Tankların tırtılında qan püskürdü sinələr,
Cəsədlər yastılandı qanlı bir həsir kimi.

Yağının qəsdi buydu susdursun haqq deyəni,
Mərhəmət qına girdi, mərmi həddini aşdı.
Silahsızın üstünə çəkdi zireh geyəni,
Gizli ölümlər daha küçələrə yol açdı.

Qaynayan meydanları atəşlə söndürdülər,
Yalançı qardaşlığın puç oldu aqibəti.
Beşikdəki körpəni silahla dindirdilər,
Hansı sözlə söyləyim qatillərə nifrəti!..

Gözlərindən qan damır doğan müdhiş səhərin,
Yerə sərilənlərin qana batıb saçları.
Nəfəsi qan qoxuyur nəşəli qatillərin,
Güllələyir evləri, yol boyu ağacları.

Qəzəbi bir mərmidir Bakının ürəyində,
Şəhidləri köksünə baş qoyan bir anadır.
Tankların izi qalır üzündə, biləyində,
Yaralı qardaş-bacı, sevgili yan-yanadır.

Yurdumda qəm libası gcyib çiçəklər, otlar,
Qan rəngində görürəm göyü, quşu, səmanı.
Günəşi gizləyibdi qana batan buludlar,
Qızarmayan bir şey var - yağıların vicdanı.

Dəyişmir öz hökmünü əsarətin qanunu –
Əmrindən çıxanları əzib soldurmaq istər.
İllərlə damarımdan sordu qara qanımı,
Boşaltdığı yerləri qanla dolduımaq istər.

Yurduna sahib çıxan millət verir qurbanlar,
Tariximə həkk etdi zaman silinməz qanı.
O gecə Bakımızda yaşanan həyacanlar
Bir əsr də qocaltdı anam Azərbaycanı.

Bir qəmli dastandı bu yaşayacaq min illər,
Yağıların əliylə yazılan qanlı yazım.
Bu günün nifrətini yaşadacaq nəsillər,
Yaşadacaq göz yaşı içən Kürüm, Arazım.

Qarabağ qara baxtım, xıncımlanan qeyrətim,

Yad ayağı altında solur gülüm, çiçəyim.

Vətən üçün öləni yaşadacaq Vətənim,

Min yerdən yara almış bir şəhiddir ürəyim!

Tapdıq İ. Bir şəhiddir ürəyim : şeir // Azərbaycan harayı. – Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2002. – S.54.